# Dayanacaqdan 25 min AZN tapan qadına - Pul mükafatı verildi

18.10.16 21:50



Türkiyədə avtobus dayanacağında 25 min Azərbaycan manatı ilə dolu çanta tapan və onu polisə təslim edən qadın mükafatlandırılıb.

“ Qafqazinfo ” Türkiyə KİV-ə istinadən xəbər verir ki, yerli bələdiyyə sədri çantanı polisə təslim edən qadın Hanife Önderin evində olub və ona örnək davranışına görə təşəkkür edib. Sədr qadına iki aylıq maaş həcmində pul mükafatı verib.

Bələdiyyə sədri qadının çarpayısı xaricində heç bir əşyası olmayan yoxsul həyatına da diqqət çəkib və bu məsələdə ona yardım edəcəklərini deyib.